# Heydər Əliyev dövlət qadın və gənclər siyasətinin müəllifidir" mövzusunda konfrans keçirilib

**Mayın 4-də Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatı və Bakı Gənclər Mərkəzinin birgə təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş "Heydər Əliyev dövlət qadın və gənclər siyasətinin müəllifidir" mövzusunda konfrans keçirilib. Əvvəlcə tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzüblər. Bakı Gənclər Mərkəzində keçirilən konfransda ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**






Tədbirin moderatoru, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva ulu öndər Heydər Əliyevin xalqımız qarşısında xidmətlərindən danışıb. O – ümummilli liderimizin müəyyənləşdirdiyi dövlət qadın və gənclər siyasətinin əhəmiyyətindən də ətraflı bəhs edib.

Konfransda çıxış edən YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva Azərbaycanda dövlət qadın siyasətinin əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu bildirib. Qeyd edib ki, ulu öndərin hakimiyyətinin bütün dövrlərində qadınlara göstərilən diqqət və qayğının artdığının şahidi olmuşuq. Onun sözlərinə görə, ulu öndərimizin müəyyənləşdirdiyi bu siyasət Prezidentimiz cənab İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Dövlət Komitəsinin sədr müavini vurğulayıb ki, respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti Azərbaycan qadınları üçün örnəkdir.

Çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin üzvü Pərvin Kərimzadə qeyd edib ki, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında xidmətləri misilsizdir. Onun sözlərinə görə, bu gün Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatının elə bir sahəsi yoxdur ki, o sahənin inkişafı ulu öndərin adı ilə bağlı olmasın. Deputat dövlət qadın və gənclər siyasətinin uğurlarından bəhs edərək deyib ki, hər iki təbəqənin nümayəndələri müxtəlif sahələrdə böyük nailiyyətlər əldə edirlər. Əlbəttə ki, bu nailiyyətlərin əsasında dövlətimizin diqqət və qayğısı dayanır.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov isə çıxışında deyib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin başlıca məqsədi yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin etməkdir. O vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir ki, Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşıb. B.İslamov qeyd edib ki, Azərbaycan gəncliyi 44 günlük Vətən müharibəsində böyük şücaət göstərərək tarix yazdı.

Konfransda Bakı Gənclər Mərkəzinin direktor müavini Arzu Əzizova çıxış edərək gəncliyin inkişafı ilə bağlı həyata keçirilən proqramların əhəmiyyətindən danışıb. O, eyni zamanda Bakı Gənclər Mərkəzinin bu istiqamətdə reallaşdırdığı layihələr və tədbirlər haqqında da məlumat verib.

Konfransın sonunda ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş "Unudulmaz gün" adlı sənədli film nümayiş olunub.

*"Xalq qəzeti"*